# Xarici media Prezident İlham Əliyevin Brüssel səfərini geniş işıqlandırıb







Aprelin 6-da Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistan baş naziri Nikol Paşinyanla işçi nahar formatında görüşü Türkiyənin aparıcı kütləvi informasiya vasitələri (KİV) tərəfindən geniş işıqlandırılıb.

AZƏRTAC xəbər verir ki, "Anadolu" agentliyi, "TGRT Haber", "TRT Haber", "Haber Global" telekanalları, "Yeni şafak", "Akşam" qəzetləri və sair media qurumları səfərin mahiyyəti barədə Türkiyə ictimaiyyətini ətraflı məlumatlandırıb.

Azərbaycanın Xarici İşlər Nazirliyinin və Avropa İttifaqının sözügedən görüş barədə açıqlamaları məlumatlarda əksini tapıb. Diqqətə çatdırılır ki, Azərbaycan XİN açıqlamasında bildirib ki, Brüssel görüşü Azərbaycanın maraqlarına uyğun olaraq və bölgənin gələcək sülh və əmin-amanlıq şəraitində inkişafının təmin edilməsi istiqamətində atılmış növbəti önəmli addımdır.

* * *






Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin dəvəti ilə Belçika Krallığının paytaxtı Brüsselə işgüzar səfəri və keçirdiyi görüşlər Gürcüstan mətbuatının diqqət mərkəzində olub.

AZƏRTAC xəbər verir ki, "kavkasia.net (Kavkaz Online)", "24news.ge", "interpress.ge", "aktual.ge" informasiya portalları Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel, eləcə də Ermənistanın baş naziri Nikol Paşinyanla görüşləri barədə məlumatlar yayıblar.

Azərbaycan, rus, ingilis və gürcü dillərində dərc olunan materiallarda görüşlərin məzmunu və nəticələri barədə oxuculara məlumat çatdırılıb.

* * *







Ukrayna KİV Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanla görüşünə və onun nəticələrinə geniş yer ayırıb.

AZƏRTAC xəbər verir ki, Ukraynanın "İnterfax", "RBK" informasiya agentlikləri, "Korrespondent.net" xəbər portalı və digər saytlarda yayımlanmış məqalələrdə Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyan tərəfindən ölkələr arasında sülh sazişinə doğru sürətli irəliləmək arzularının ifadə edilməsi qeyd olunub. Bu məqsədlə bütün zəruri məsələləri əhatə edəcək sülh sazişinin hazırlanması üzərində işləmək üçün xarici işlər nazirlərinə tapşırığın verilməsinə dair razılığın əldə olunması vurğulanıb.

Hər iki ölkə arasında sərhədin delimitasiyası və demarkasiyası zəruri olacaqdır. Bu məqsədlə 2021-ci il 26 noyabr tarixli Soçi bəyanatına müvafiq olaraq aprel ayının sonunadək Birgə Sərhəd Komissiyasının iclasının keçirilməsi ilə bağlı razılıq əldə olunub. Birgə Sərhəd Komissiyasının mandatına Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası, sərhəd xətti boyu və onun yaxınlığında sabit təhlükəsiz vəziyyətin təmin edilməsi daxil edilib.

Azərbaycan.- 2022.- 8 aprel.- S.2.